# TURKPA

PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES

## HÜQUQ MƏSƏLƏLƏRİ KOMİSSİYASI

## QANUNVERİCİLİKLƏRİN UYĞUNLAŞDIRILMASI SAHƏSİNDƏ TÜRKPA ÜZV ÖLKƏLƏRİNİN FƏALİYYƏTLƏRİNƏ DAİR

## TÖVSİYƏ QƏRARI

**№ 1**

**1.** TÜRKPA özünün əsas məqsədinin üzv ölkələr arasında inkişaf edən çoxşaxəli əməkdaşlıq üçün inteqrasiya olunmuş qanunverici platformanın yaradılmasının olduğunu vurğulayır.

**2.** TÜRKPA İstanbul Sazişinə sadiqliyini bir daha təsdiq edir və üzv ölkələrin qanunvericiliklərinin yaxınlaşdırılması məsələsinin Assambleya üçün prioritet məsələlərdən biri olduğunu vurğulayır.

**3.** TÜRKPA bilir ki, TÜRKPA çərçivəsində qanunvericiliklərin uyğunlaşdırılması prosesi üzv ölkələrdən hər birinin spesifik milli siyasəti nəzərə alınmaqla həyata keçirilməlidir və Assambleya bu məqsədlə qanunvericiliyin uyğunlaşdırılmasının konstruktiv, ardıcıl və yumşaq formasını işləyib hazırlamalıdır.

**4.** TÜRKPA üzv ölkələrin qanunvericiliklərinin uyğunlaşdırılması işində ekspertlər səviyyəsində aparılan və perspektivdə model qanunların hazırlanmasına töhfə verəcək məsləhətləşmələrin vacibliyini vurğulayır.

**5.** Bütün bunlardan irəli gələrək TÜRKPA milli parlamentlərə tövsiyə edir ki:

i) Türkiyənin öz qanunvericiliyini Avropa İttifaqının qanunvericiliyi ilə uyğunlaşdırlması sahəsindəki təcrübəsi, eləcə də digər üzv ölkələrin Müstəqil Dövlətlər Birliyi Parlamentarası Assambleyası çərçivəsində bu sahədə əldə etdikləri təcrübədən *istifadə etsinlər*;

ii) Model qanun layihələrin və digər qərarların işlənib hazırlanması məqsədi ilə TÜRKPA komissiyalarının iclaslarından əvvəl müntəzəm əsasda ekspertlər səviyyəsində məsləhətləşmələr və dəyirmi masalar *təşkil etsinlər*;

iii) Müvafiq sahələr üzrə qanunvericiliyin uyğunlaşdırılmasına dair təkliflərin işlənib hazırlanması məqsədi ilə milli parlamentlərin ixtisaslaşmış komitələrin daimi əsasda görüşlərini *keçirmək*;

iv) Qanunvericiliyin uyğunlaşdırılmasında prioritet sahələrin müəyyənləşdirilməsi, bu istiqamətdə əsas maneələrin dəyərləndirilməsi, eləcə də bununla əlaqədar digər məsələlərə kömək etmək məqsədi ilə üzv ölkələrin milli qanunvericiliklərini üzrə ümumi məlumat/araşdırma mərkəzini *yaratsınlar*;

v) Qanunvericiliyin uyğunlaşdırılması, eləcə də mədəni, ticarət və investisiya, səhiyyə və ətraf mühitin qorunması, korrupsiya ilə mübarizə, terrorizm, çirkli pulların yuyulması, hərbi qanunvericilik və digər sahələr üzrə model qanunların qəbul edilməsi perspektivlərinə dair Assambleyada *müzakirələr aparmaq*;

vi) Hüquqi terminologiya, ümumi hüquq lüğətləri və sözlüklərin hazırlanması, eləcə də müqayisəli hüquqi təhlillərin aparılması yönümündə *müzakirələri başlatmaq*;

vii) Assambleyanın tövsiyə və qərarlarının hazırlanması işində iştiraklarını təmin etmək məqsədi ilə ekspertlər səviyyəsində keçirilən məsləhətləşmələrə elmi institutlarının nümayəndələrini *dəvət etsinlər*;

viii) Milli parlamentlərin konstitusiya, hüquq, iqtisadiyyat kimi komitələrinin üzv ölkələr arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın irəliləmə və təkmilləşdirilməsi işində səriştəli iştirakını *təmin etsinlər*.